**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 24 iyun tarixli 182-VI FR nömrəli Fərmanı ilə təsdiq edilmişdir.**

## Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidməti haqqında

## Ə S A S N A M Ə

### 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyinin Xüsusi Riskli Xilasetmə Xidməti (bundan sonra – Xidmət) Naxçıvan Muxtar Respublikasının ərazisində (bundan sonra-ərazi) fövqəladə hallara (hadisələrə) çevik reaksiya verilməsini, fövqəladə halların (hadisələrin) nəticələrinin aradan qaldırılması zamanı xüsusi riskli axtarış və qəza-xilasetmə əməliyyatlarını, zərərçəkmişlərə ilkin yardım və təxirəsalınmaz tibbi yardım göstərilməsini, təbii, texnogen, yanğın və terror təhlükələrinə məruz qalan strateji əhəmiyyətli müəssisələrin, qurğuların və digər obyektlərin öz səlahiyyətləri daxilində mühafizəsini, humanitar yardımların (yüklərin) müşayiət və mühafizə olunmasını təşkil edən, öz səlahiyyətləri daxilində strateji obyektlərin, qurğuların mühafizəsini və bu sahədə digər təxirəsalınmaz tədbirləri həyata keçirən orqandır.

1.2. Xidmət öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını və qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi haqqında Əsasnaməni, bu Əsasnaməni və Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin (bundan sonra - Nazirlik) əmr və göstərişlərini rəhbər tutur.

1.3. Xidmət öz fəaliyyətini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Nazirliyin aparatı və tabeliyində olan qurumlar, icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları, qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Xidmət müstəqil balansa, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri, Nazirliyin və Xidmətin adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara, bayraq və rəmzlərə malikdir.

1.5. İdarənin saxlanma xərcləri və fəaliyyəti Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsi və qanunvericiliyə zidd olmayan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. Xidmət Naxçıvan şəhərində yerləşir.

### 2. XİDMƏTİN FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

2.0. Xidmətin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.0.1. fövqəladə halların nəticələrinin aradan qaldırılması, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması sahəsində dövlət siyasətinin və tənzimlənməsinin işlənib hazırlanmasında və həyata keçirilməsində öz səlahiyyətləri daxilində iştirak edir;

2.0.2. fövqəladə halların nəticələrinin aradan qaldırılması, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması sahəsində, eləcə də fövqəladə halların qarşısının alınması üzrə Vahid Dövlət Sistemi daxilində icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin əlaqələndirilməsi istiqamətində Nazirliyə təkliflər verir və müvafiq tədbirlər həyata keçirir;

2.0.3. fövqəladə hallarda müxtəlif dağıntılar və uçqunlara məruz qalmış ərazilərdə (zonalarda) öz qüvvələri və əməliyyata cəlb olunmuş digər qüvvələrlə təxirəsalınmaz xüsusi riskli axtarış və qəza-xilasetmə işlərinin, qəza hallarının aradan qaldırılması üçün profilaktik tədbirlərin həyata keçirilməsini və öz səlahiyyətləri daxilində humanitar yardımların mühafizəsini təmin edir;

2.0.4. Xidmətin səlahiyyətlərinə aid edilən məsələlər üzrə normativ tənzimləməni və nəzarət funksiyalarını həyata keçirir;

2.0.5. fövqəladə hal (hadisə) baş vermiş ərazilərdə (zonalarda) xüsusi riskli axtarış və qəza-xilasetmə işlərinin və terror təhlükələrinə məruz qalan strateji əhəmiyyətli müəssisələrin, qurğuların və digər obyektlərin mühafizəsinin təşkil edilməsində iştirak edir;

2.0.6. Xidmətin tabeliyində olan hərbi qüvvələrin və mülki işçilərdən ibarət xüsusi riskli axtarış və qəza-xilasetmə dəstələrinin fövqəladə hallarda xilasetmə və mühafizə tədbirlərinin yerinə yetirilməsi sahəsində hazırlığını təmin edir;

2.0.7. fövqəladə hallar (qəzalar) baş verə biləcək ərazilərdə (zonalarda) əhalinin və ərazilərin müdafiəsi üçün qabaqlayıcı tədbirlərin görülməsi işlərində digər qurumlarla birlikdə iştirak edir;

2.0.8. Xidmətin fəaliyyət dairəsinə aid edilən sahələrin inkişafını təmin edir;

2.0.9. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə də fəaliyyət göstərir.

## 3. XİDMƏTİN VƏZİFƏLƏRİ

3.0. Xidmət bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.0.1. Xidmət aşağıdakı məsələlərlə bağlı təkliflərini Nazirliyə təqdim edir:

3.0.2. fövqəladə halların nəticələrinin aradan qaldırılması, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması və fövqəladə halların qarşısının alınması sahəsində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi barədə;

3.0.3. fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində Azərbaycan Respublikasının Milli Konsepsiyasının layihəsi ilə bağlı təkliflərini;

3.0.4. fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üçün Azərbaycan Respublikası Silahlı Qüvvələrinin, qanunvericiliklə nəzərdə tutulmuş digər silahlı birləşmələrin və qurumların Naxçıvan Muxtar Respublikasında yerləşən hissələrinin birgə fəaliyyət göstərməsi barədə;

3.0.5. fövqəladə halların nəticələrinin aradan qaldırılması, əhalinin və ərazilərin fövqəladə hallar barədə xəbərdar edilməsi üzrə monitorinq, proqnozlaşdırma və digər qabaqlayıcı tədbirlər ilə bağlı;

3.0.6. xüsusi riskli xilasetmə və digər təxirəsalınmaz əməliyyatların aparılması və mühafizə tədbirlərinin həyata keçirilməsi sahəsində təlimlərin və məşqlərin hazırlanması ilə bağlı;

3.0.7. müdafiə məqsədləri üçün Azərbaycan Respublikası Silahlı Qüvvələrinin tətbiq olunması Planının, Səfərbərlik Planının və ölkə ərazisinin operativ istehkamlaşdırılması üzrə dövlət proqramının hazırlanması işində iştirak etmək;

3.0.8. Xidmətin fəaliyyəti ilə bağlı normativ hüquqi aktların hazırlanması barədə;

3.0.9. Xidmətin struktur bölmələrinin fəaliyyətinin təkmilləşdirilməsi barədə;

3.0.10. Xidmətin qüvvə və vasitələrinin hazırlıq mərhələlərində saxlanılmasının, gündəlik fəaliyyətinin idarə olunmasının və təyinatına görə tətbiq edilməsinin təmin edilməsi barədə;

3.0.11. fövqəladə hallar və terror təhlükələri zamanı və ya belə hallar baş verdikdə, strateji əhəmiyyətli neft-qaz hasilatı və emalı müəssisələrinin, terminalların, magistral boru

kəmərlərinin, içməli su mənbələrinin, elektrik stansiyalarının, hidrodinamik qurğuların və ölkə iqtisadiyyatı üçün xüsusi əhəmiyyət kəsb edən digər müəssisələrin mühafizəsini müvafiq dövlət orqanları ilə birlikdə təmin etmək;

3.0.12. fövqəladə hallar baş verən ərazilərdə (zonalarda) xüsusi riskli xilasetmə işlərinin həyata keçirilməsində, əhalinin, onun əmlakının maddi və mədəni sərvətlərinin evakuasiyasında (təxliyəsində) iştirak etmək, həmçinin aidiyyəti icra hakimiyyəti orqanları ilə birlikdə fövqəladə vəziyyət zonasında qalmış əmlakın mühafizəsini və ictimai asayişi təmin etmək;

3.0.13. müvafiq dövlət orqanları ilə birlikdə minalanmış ərazilərin minalardan təmizlənməsində, eyni zamanda mühafizə tədbirlərinin görülməsində iştirak etmək;

3.0.14. humanitar yardımların daşınması zamanı mühafizə tədbirlərini təmin etmək;

3.0.15. ərazidə hərbi əməliyyatlar nəticəsində baş vermiş irimiqyaslı qəzalar zamanı hadisə baş vermiş ərazilərdə (zonalarda) xüsusi riskli xilasetmə əməliyyatlarının keçirilməsini təmin etmək və müvafiq dövlət orqanları ilə birlikdə mühafizə tədbirlərinin görülməsində iştirak etmək;

3.0.16. Xidmətin təlim və məşqlərinin planlaşdırılmasına, onların hazırlanması və həyata keçirilməsinə nəzarət etmək və qüvvələrinin təyinatı üzrə tətbiq edilməsini təmin etmək;

3.0.17. xidməti vəzifələrini yerinə yetirərkən Xidmətin əməkdaşlarının təhlükəsizliyini təmin etmək;

3.0.18. fövqəladə halların nəticələrinin aradan qaldırılmasında xüsusi riskli xilasetmə əməliyyatlarının həyata keçirilməsi ilə bağlı Xidmət üzrə xilasetmə və mühafizə tədbirlərinin illik planını hazırlamaq və təsdiq edilməsi üçün Nazirliyə təqdim etmək;

3.0.19. fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması ilə bağlı Azərbaycan Respublikasının Milli Konsepsiyasının və digər proqramların həyata keçirilməsində öz səlahiyyətləri daxilində iştirak etmək;

3.0.20. fövqəladə hallarda Xidmətin qüvvələrinin maddi-texniki və insan resurslarının səfərbər edilməsi imkanlarının cari və perspektiv planlaşdırılması barədə Nazirliyə təkliflər vermək;

3..0.21. fövqəladə halların nəticələrinin aradan qaldırılması, fövqəladə halların proqnozlaşdırılması, qabaqlayıcı tədbirlərin görülməsi və digər kompleks tədbirlərin həyata keçirilməsi, həmçinin Xidmətin fəaliyyət sahəsi üzrə informasiyanın toplanması və sistemləşdirilməsi məqsədi ilə xüsusi təyinatlı elektron informasiya sisteminin yaradılmasında iştirak etmək;

3.0.22. fövqəladə halların qarşısının alınmasını və nəticələrinin aradan qaldırılmasını operativ surətdə təşkil etmək məqsədilə Naxçıvan Muxtar Respublikasının ərazisini əhatə edən "Fövqəladə Halların İdarə Olunmasının Coğrafi İnformasiya Sistemi"nin (CİS) yaradılmasında iştirak etmək;

3.0.23. Xidmətə məxsus xidməti və döyüş silahlarının dövriyyəsinə nəzarət etmək və döyüş sursatının saxlanması qaydalarına əməl olunmasını təmin etmək;

3.0.24. Xidmətin tabeliyində olan hərbi qulluqçuların, xilasedicilərin və fövqəladə halların nəticələrinin aradan qaldırılmasında iştirak edən digər əməkdaşların həyatının icbari sığortalanması ilə bağlı tədbirlər görmək;

3.0.25. Xidmətin fəaliyyət sahələri üzrə kadrların peşə və xüsusi hazırlığını və onların əlavə təhsilini təmin etmək;

3.0.26. beynəlxalq təcrübə nəzərə alınmaqla, fövqəladə halların nəticələrinin aradan qaldırılması zamanı xüsusi riskli axtarış və qəza-xilasetmə əməliyyatlarının və mühafizə tədbirlərinin həyata keçirilməsi sahəsində müasir texnika və texnologiyaların tətbiq edilməsi ilə bağlı tədbirlər görmək;

3.0.27. Xidmət üçün ayrılan büdcə və digər maliyyə vəsaitlərinin uçotunu aparmaq və onlardan səmərəli istifadə olunmasına nəzarət etmək;

3.0.28. Xidmətin fəaliyyəti ilə bağlı dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün qanunvericiliyə uyğun zəruri mühafizə və təhlükəsizlik tədbirləri həyata keçirmək;

3.0.29. təbii və texnogen xarakterli fövqəladə hallar baş vermiş ərazilərdə (zonalarda) təxirəsalınmaz xüsusi riskli xilasetmə tədbirlərinin həyata keçirilməsini, zərərçəkmiş insanların xilas edilməsini, onlara təcili və təxirəsalınmaz tibbi yardım göstərilməsini təmin etmək;

3.0.30. su, qaz, enerji və digər şəbəkələrdə baş vermiş qəzaların lokallaşdırılmasında əlaqədar qurumlarla birgə iştirak etmək və təxirəsalınmaz xüsusi riskli xilasetmə işlərinin aparılmasını təşkil etmək;

3.0.31. xüsusi riskli axtarış və qəza-xilasetmə əməliyyatları zamanı əməliyyat şəraitini qiymətləndirmək və həmin ərazidə mövcud olan təhlükə dərəcəsi barədə əməliyyata cəlb olunacaq xilasediciləri məlumatlandırmaq;

3.0.32. Xidmətin axtarış və qəza-xilasetmə, eləcə də mühafizə dəstələrinin əməkdaşlarının ilkin və təkrar təlimini və peşəkarlıq səviyyəsinin artırılmasını həyata keçirmək;

3.0.33. xilasedicilərin axtarış və qəza-xilasetmə işlərinin həyata keçirilməsi üzrə mütəxəssislərin hazırlanması üçün müvafiq tədbirlər görmək;

3.0.34. xilasetmə və mühafizə dəstələrinin daimi hazırlığını, gündəlik fəaliyyətinin idarə olunmasını, habelə xüsusi riskli xilasetmə və mühafizə işlərində, xüsusi təyinatlı nəqliyyat vasitələrinin, texnikanın, avadanlıqların, cihaz və alətlərin təyinatı üzrə tətbiqini və digər imkanlarından istifadəni öz səlahiyyətləri daxilində təmin etmək;

3.0.35. Xidmətin səlahiyyətlərinə aid edilən sahələr üzrə sərgilərin, konfransların, müxtəlif təlim və idman tədbirlərinin keçirilməsində iştirak etmək;

3.0.36. fövqəladə halların (hadisələrin) qarşısının alınması və nəticələrinin aradan qaldırılmasında, partlayıcı maddələrin, aviasiya bombaları və fuqaslarının aşkar edilməsi və zərərsizləşdirilməsi eləcə də müxtəlif xilasetmə əməliyyatlarının aparılmasında Xidmətin xilasedici-alpinistlərinin, kinoloqlarının, dalğıclarının, istehkamçılarının, paraşütçülərinin və aidiyyəti üzrə digər xilasedici mütəxəssislərinin imkanlarından istifadə etmək;

3.0.37. 112 qaynar xətdən və digər mənbələrdən daxil olmuş məlumatlara əsasən yol-nəqliyyat, uçqun, məişət və digər qəzalar zamanı zərərçəkmişlərin xilas olunması, onlara ilk yardım və təxirəsalınmaz tibbi yardım göstərilməsi məqsədilə Xidmətin xilasetmə dəstələrinin (qruplarının) daim “Hazırlıq” mərhələsində olmalarını təmin etmək;

3.0.38. Xidmətə maddi-texniki bazasının möhkəmləndirilməsi barədə Nazirliyə təkliflər vermək;

3.0.39. Xidməti naqilli rabitə sistemi və səyyar radiorabitə vasitələri ilə və onların daimi işlək vəziyyətdə saxlanılmasını təmin etmək;

3.0.40. potensial təhlükə obyektlərinin yerləşdiyi ərazilərdə fəaliyyət göstərən yerli xilasedici dəstələrin hazırlıq prosesində iştirak etmək və onların xilasetmə fəaliyyəti ilə bağlı tədris proqramlarının hazırlanmasına köməklik göstərmək;

3.0.41. fövqəladə hallar baş vermiş ərazilərə (zonalara) axtarış və qəza-xilasetmə dəstələrinin avadanlıqlarının, alətlərinin, cihazlarının və xüsusi yüklərinin təcili çatdırılmasını və mühafizəsini təmin etmək;

3.0.42. öz səlahiyyətlərini yerinə yetirərkən insan və vətəndaş hüquqları və azadlıqlarını təmin etmək;

3.0.43. Xidmətin fəaliyyəti ilə bağlı ərizə və şikayətlərə baxmaq və qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.0.44. Xidmətin fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## 4. XİDMƏTİN HÜQUQLARI

4.0. Xidmət öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.0.1. fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində normativ hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək;

4.0.2. Xidmətin bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun struktur bölmələrini yaratmaq, yenidən təşkil etmək və ya ləğv etmək barədə Nazirliyə təkliflər vermək;

4.0.3. fövqəladə hallar və terror təhlükələri zamanı və ya belə hallar baş verdikdə, strateji əhəmiyyətli müəssisələrin, qurğuların və digər obyektlərin mühafizəsinin təmin edilməsində iştirak etmək;

4.0.4. sərəncamında olan dövlət əmlakını və maliyyə vəsaitlərini qanunvericiliklə müəyyən olunmuş qaydada idarə etmək;

4.0.5. qanunvericiliklə müəyyən edilmiş qaydada öz ehtiyacları üçün silah, sursat, rabitə vasitələri, xüsusi texnika və digər texniki vasitələrin alınması barədə Nazirliyə təkliflər vermək, onların saxlanılmasını və mühafizəsini təmin etmək;

4.0.6. Xidmətin hərbi qulluqçularına qanunvericiliklə müəyyən edilmiş qaydada xidməti silah və xüsusi vasitələr vermək;

4.0.7. Xidmətin səlahiyyətlərinə aid edilən məsələlər barədə lazım olan məlumatları və sənədləri əldə etmək üçün strateji obyektlərin rəhbərlərinə, eyni zamanda icra hakimiyyəti və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) tələb etmək;

4.0.8. Xidmətin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının, dövlət qulluqçularının və digər mülki işçilərinin, onların ailə üzvlərinin, habelə pensiyaçılarının sağlamlığının qorunması istiqamətində kompleks profilaktika, müalicə, sanatoriya-kurort və digər sosial müdafiə tədbirlərinin həyata keçirilməsi barədə Nazirliyə təkliflər vermək;

4.0.9. xüsusi siqnallar və rabitə vasitələri ilə təchiz edilmiş, tanınma nişanı və rəngi olan xüsusi nəqliyyat vasitələrinə malik olmaq;

4.0.10. Xidmətin fəaliyyət dairəsinə uyğun sahələr üzrə mütəxəssislərin hazırlanması və kadrların əlavə təhsili işini təşkil etmək;

4.0.11. Xidmətin fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 5. XİDMƏTİN FƏALİYYƏTİNİN TƏŞKİLİ

5.1. Xidmət öz fəaliyyətini struktur bölmələr vasitəsilə həyata keçirir.

5.2. Xidmətin hərbi qulluqçuları vəzifələrinə uyğun olaraq qanunvericiliklə müəyyən edilmiş qaydada hərbi qulluq keçirlər.

5.3. Xidmətə hərbi qulluğa və xüsusi rütbəsi olan əməkdaş vəzifələrinə xidmətə qəbul və vəzifəyə təyin etmə, hərbi qulluqdan, xidmətdən və vəzifədən azad etmə Naxçıvan Muxtar Respublikasının fövqəladə hallar naziri (bundan sonra - nazir) tərəfindən həyata keçirilir.

Mülki işçilərin Xidmətdə vəzifəyə təyin və vəzifədən azad edilməsi qanunvericiliyə uyğun olaraq nazir tərəfindən həyata keçirilir.

5.4. Nazirliyin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri tərəfindən təsdiq edilən büdcədən maliyyələşdirilən işçilərinin say həddi daxilində Xidmətin strukturu və ştat cədvəli, büdcə vəsaitləri üzrə xərclər smetası nazir tərəfindən təsdiq edilir.

5.5. Xidmətin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının vəzifə, hərbi (xüsusi) rütbəyə görə maaşlarının məbləği və pul təminatının digər növləri qanunvericiliyə uyğun olaraq müəyyən edilir.

5.6. Xidmətin mülki işçilərinin statusu qanunvericiliyə uyğun tənzimlənir.

5.7. Xidmətin fəaliyyətinə nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən Xidmətin rəisi (bundan sonra – rəis) rəhbərlik edir.

5.8. Xidmətə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsinə və hüquqlarının həyata keçirilməsinə görə rəis şəxsən məsuliyyət daşıyır.

5.9. Rəisin fövqəladə hallar naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən bir müavini vardır;

5.10. Rəis:

5.10.1. Xidmətin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

5.10.2. öz müavininin səlahiyyətini müəyyən edir;

5.10.3. Xidmətin maliyyə-təsərrüfat fəaliyyətinə rəhbərlik edir;

5.10.4. Xidmətin fəaliyyət sahəsinə aid olan məsələlərlə bağlı normativ hüquqi aktların layihələrinin hazırlanmasını təşkil edir və Nazirliyə təqdim edir;

5.10.5. öz səlahiyyətləri daxilində Xidmətin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının və mülki işçilərinin vəzifəyə təyin edilməsi, hərbi qulluq və xidmət üzrə yerdəyişmə və vəzifədən azad edilməsi barədə fövqəladə hallar nazirinə təqdimat verir;

5.10.6. Xidmətin struktur bölmələrinin yaradılması, yenidən təşkili və ləğv edilməsi barədə Nazirliyə təkliflər verir;

5.10.7. Xidmət üzrə icrası məcburi olan əmrlər və göstərişlər verir və onların icrasına nəzarəti təşkil edir;

5.10.8. qanunvericiliklə müəyyən edilmiş qaydada Xidmət üzrə vəzifələrə uyğun hərbi və xüsusi rütbə hədlərinin müəyyən edilməsi barədə Nazirliyə təkliflər verir;

5.10.9. müəyyən edilmiş qaydada Xidmətin hərbi qulluqçularına və xüsusi rütbəsi olan əməkdaşlarına polkovnik rütbəsi daxil olmaqla hərbi (xüsusi) rütbələrin, o cümlədən vaxtından əvvəl və növbədənkənar hərbi (xüsusi) rütbələrin verilməsi barədə fövqəladə hallar naziri qarşısında vəsatət qaldırır;

5.10.10. Xidmətin hərbi qulluqçularının, xüsusi rütbəsi olan əməkdaşlarının və mülki işçilərinin Azərbaycan Respublikasının dövlət mükafatlarına təqdim olunması barədə Nazirliyə təqdimat verir;

5.10.11. Xidmətin səlahiyyətlərinə aid edilən məsələlər üzrə növbəti il üçün Nazirliyin saxlanılması xərclərinin formalaşdırılması ilə bağlı təkliflər verir;

5.10.12. Xidmətin hərbi qulluqçuları, xüsusi rütbəsi olan əməkdaşları və mülki işçiləri haqqında qanunvericiliklə müəyyən olunmuş qaydada həvəsləndirmə və intizam tənbehi tətbiq edilməsi barədə Nazirliyə təklif təqdim edir;

5.10.13. Xidmətin struktur bölmələrinin əsasnamələrinin layihələrini hazırlayır və təsdiq olunmaq üçün Nazirliyə təqdim edir;

5.10.14. qanunvericiliklə müəyyən edilmiş digər hüquqlardan istifadə edir.